# ÇİN XALQ RESPUBLİKASININ PEŞƏ TƏHSİLİ MÜƏSSİSƏLƏRİMİZƏ DƏSTƏYİ

Noyabrın 22-də Abşeron-Binə Peşə Liseyində Çin Xalq Respublikası Hökuməti tərəfindən həyata keçirilən "Peşə Tədris Mərkəzinin maddi-texniki bazasının gücləndirilməsi" texniki-yardım layihəsi çərçivəsində gətirilmiş avadanlıqların təqdimatı keçirilib.



Tədbirdə təhsil nazirinin müavini İdris İsayev, Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Vey Cinhua, Peşə Təhsili üzrə Dövlət Agentliyinin əməkdaşları, eləcə də bir sıra peşə təhsili müəssisələrinin və işəgötürənlərin nümayəndələri iştirak edib.

Layihə haqqında məlumat verən nazir müavini bildirib ki, Azərbaycan Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında imzalanmış texniki-iqtisadi əməkdaşlıq sazişi çərçivəsində müxtəlif kateqoriyalı avtonəqliyyat vasitələrinin sürücülərinin hazırlığını və ixtisasartırmasını həyata keçirmək üçün 70 adda 168 ədəd müxtəlif təyinatlı simulyatorlar, təlim sistemləri üzrə avadanlıqlar, iş masaları, mexanizmlər, alətlər və digər ləvazimatlar ölkəmizə gətirilərək Abşeron-Binə Peşə Liseyində, Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində quraşdırılıb.

Tədbirin sonunda Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi arasında texniki-yardım layihəsi çərçivəsində gətirilmiş avadanlıqların təhvil-təslim aktı imzalanıb. Tədbir iştirakçıları texniki-yardım layihəsi çərçivəsində gətirilmiş avadanlıqlarla tanış olublar.